## XOCAVƏND RAYON İCRA HAKİMİYYƏTİ YANINDA İCTİMAİ ŞURA

# İLLİK HESABAT

## (11.06.2021-11.06.2022)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 16 yanvar 2014-cü il tarixdə "İctimai İştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi barədə imzaladığı fərmanın icrası ilə əlaqədar yaradılan İctimai Şuraların qarşısında çağdaş dövrün tələblərindən irəli gələn vəzifələr durur. Dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı qərarların qəbulu prosesində vətəndaş cəmiyyətinin təmsil edilməsi, aidiyyəti məsələlər üzrə rəylər, təkliflər verilməsi istiqamətində ictimai şuraların artıq müsbət təcrübəsi vardır.

"İctimai İştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunun 6.1-ci maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 171 nömrəli 30 may 2014- cü il tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və "Yerli İcra hakimiyyətləri haqqında" Əsasnamənin 6.8-ci bəndlərini rəhbər tutaraq Xocavənd Rayonu İcra Hakimiyyəti başçısının 10.02.2016-cı il tarixli 14 saylı Sərəncamına əsasən İctimai Şuraya seçkilərin keçirilməsi məqsədilə Komissiya yaradılmış və seçkilər keçirilərək Şuranın tərkibi müəyyən olunmuşdur.İctimai Şuranın mütəmadi olaraq keçirilən iclaslarında bir sıra məsələlər müzakirə edilmiş və irəli sürülmüş təklif və tövsiyələr əsasında müvafiq tədbirlər həyata keçirilmişdir.

Pandemiya səbəbindən Xocavənd Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya növbəti seçkinin keçirilməsi gecikmiş, 11 iyun 2021- ci il tarixdə mümkün olmuşdur. Formalaşmış yeni tərkibdə üçü şəhid ailəsi olmaqla 11 nəfər təmsil olunub.

Şura fəaliyyətini Vətəndaş cəmiyyəti qurumu olaraq İcra Hakimiyyəti ilə əlaqələrin yaxından qurulmasına və Cənab prezident İlham Əliyevin ictimai iştiraklılıqla bağlı söylədiyi tövsiyələr əsasında qurmağa çalışmışdır. Şuranın ilk fəaliyyəti strukturun formalaşması və üzvlərin istiqamətlər üzrə fəaliyyətinin müəyyələnləşdirilməsi istiqamətində olmuşdur. Şura üzvlərinin sosial şəbəkə vasitəsi ilə qrupu yaradılmışdır. Sosial şəbəkələrdə İctimai Şuranın səhifələri yaradılmışdır. Bu səhifələr vasitəsi ilə Şura fəaliyyətini yayımlayır və vətəndaşların ərizə və təkliflərini qəbul edir.

İcra Hakimiyyəti tərəfindən İctimai Şura üzvləri üzvlülük vəsiqələri təmin edilmişdir. Xocavənd Rayon İcra Hakimiyyəti başısının müavini Əfsanə Quliyeva tərəfindən Şuranın sədr və müavini İcra hakimiyyətinə dəvət olunmuş digər səlahiyyətli şəxslərlə birgə şuranın fəaliyyət istiqamətləri müzakirə edilmişdir. Şura- İcra hakimiyyəti arasında koordinasiya əlaqələri yüksək səviyyədə təşkil olunmuşdur Şura ilə İcra hakimiyyəti arasında koordinasiya məsələləri başçının müavini Əfasanə quliyeva tərəfindən aparılır.Həmçinin Şuranın iclaslarında Rayon İcra Hakimiyyətinin, rayon idarə və təşkilatlarının əməkdaşları iştirakı təmin edilir. Şuranın sədri Xocavənd Rayon İcra Hakimiyyəti başçısının səyyar qəbullarında da iştirak edir, orada qaldırılan məslələrlə bağlı da müvafiq işlər görülür.

Şura üzvləri Xocavənd Rayon İcra Hakimiyyəti ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, qərarların qəbulu zamanı ictimai rəy və vətəndaş maraqlarının təmin olunmasında şəffaflığın daha da artırılmasında fəal iştirak etmişlər. Eyni zamanda insanları narahat edən məsələlərin icrasında onlara yardımçı olmuş, xüsusən şəhid ailələrinin, qazilərin qarşılaşdıqları çətinlikləri aradan qaldırılmasında səlahiyyətləri daxilində köməklik göstərmişlər.

Şura üzvlərinin mütəmadi olaraq keçirdiyi iclaslar zamanı vətəndaşları daha çox narahat edən məsələlər müzakirə olunmuş və qəbul edilmiş qərarlarla bağlı müvafiq olaraq müraciət olunmuşdur. İşğaldan azad olunmuş ərazilərdə yaxınlarının məzarlarının ziyarət olunması üçün icazələrin verilməsi, içməli su ilə əhalinin təmin olunması, su kanalizasiya xətlərinin yenilənməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi rayonumuzun aktual problemlərdəndir.

Qeyd edək ki, 2012-ci ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən tikilmiş idman zalının hələ də istifadəyə verilməməsi , Yeni Xocavənd qəsəbəsində 2007- ci ildə Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə istifadəyə verilən 8 otaqlı 4 saylı tam orta məktəb üçün yeni sinif otaqları və uyğunlaşdırılmış binada fəaliyyət göstərən uşaq bağçası üçün yeni binanın tikintisi ilə bağlı vətəndaşların narahatlıqları ilə bağlı da Xocavənd Rayon İcra Hakimiyyətinə müraciətlər edilib. Məktəb üçün sinif otaqları və uşaq bağçasının tikintisi ilə bağlı artıq Yaponiya səfirliyinin qrant yardımı ilə ilkin layihələndirmə işləri aparılır.

Xocavənd Rayonu İcra Hakimiyyəti yanında İctimai Şura bundan sonrakı fəaliyyətində Rayon İcra Hakimiyyəti ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, qərarların qəbulu zamanı ictimai rəy və vətəndaş maraqlarının təmin olunması istiqamətində işləri davam etdirəcək.